**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№358/2** **09 avqust 2023-cü il**

**Auditorlar Palatasında 2023-cü ilin I yarımilində keçirilmiş tədbirlərdə (“dəyirmi masa”lar, seminarlar və ustad dərsləri) Palata üzvlərinin iştirakının monitorinqi barədə**

Auditorlar Palatasınının 2023-cü il üzrə iş planının 7.7-ci “Palatada fəaliyyət göstərən “Dəyirmi masa”, təşkil olunan seminar, konfrans və s. tədbirlərdə Palatanın üzvlərinin iştirakının monitorinqi” bəndinə və Palata sədrinin “Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, “dəyirmi masa”lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə” 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli Sərəncamının 5-ci bəndinə uyğun olaraq Palatanın Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən təqdim edilmiş arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasında 2023-cü ilin I yarımilində keçirilmiş tədbirlərin (“dəyirmi masa”lar, seminarlar və ustad dərsləri) təşkilində və keçirilməsində fəal iştirak etmiş Palatanın əməkdaşlarının (Q.Bayramov, N.Talıbov, V.Rəhimov, E.İbrahimov, Q.Əhmədov, F.Kamalova, Z.Almazov) işləri müsbət qiymətləndirilsin və onların mükafatlandırılması məqsədəmüvafiq hesab edilsin.

2. Auditorlar Palatasında 2023-cü ilin I yarımilində keçirilmiş tədbirlərdə (“dəyirmi masa”lar, seminarlar və ustad dərsləri) məruzəçi qismində çıxış edən Palatanın üzvlərinə (A.Cəfərov, N.Axundov, N.Niftəliyev, S.Vəlizadə) təşəkkür elan edilsin.

3. Auditorlar Palatasında 2023-cü ilin I yarımilində keçirilmiş tədbirlərdə müntəzəm iştirak edən auditor təşkilatlarının ("Accept-Audit" MMC, “Azəruçot” MMC, “BKR Consulting” MMC, "BKR İşık Konsaltinq" MMC, "Business Consulting Company" MMC, “Consulting Group” MMC, "Ekol Audit" MMC, "ELVİ Audit" MMC, "Fchain Audit" MMC, "Garant Audit Azərbaycan" MMC, "Grandis Audit" MMC, "Himmara Audit" MMC, "İnvest Finance" MMC, "Kh.J.A Audit-Consulting Xidməti" MMC, "Local Audit" MMC, "L.B Audit Xidməti" MMC, "Modern Audit Servis" MMC, "Professional Financial Experts" MMC, "TNM Audit" MMC, "Tax Audit" MMC, "Xəzər-Audit 2020" MMC) rəhbərlərinə və sərbəst auditorlara (Əhmədov Hafiz, Əliyev Elvin, İbrahimov Elnur, Həsənov Murtuzəli) təşəkkür elan edilsin.

4. Auditorlar Palatasında 2023-cü ilin I yarımilində keçirilmiş tədbirlərin ümumi sayının 60%-dən çoxunda iştirak edən auditor təşkilatlarının və sərbəst auditorların iştirakı qənaətbəxş hesab edilsin (1 və 2 saylı siyahı əlavə olunur).

5. Auditorlar Palatasında 2023-cü ilin I yarımilində keçirilmiş tədbirlərdə iştirak etməyən auditor təşkilatlarının ("Accountal Finans Biznes Konsaltinq" MMC, "Bakinar Audit" MMC, "Global and legal Audit" MMC, "Max Audit" MMC “ATR Audit” MMC, “Business Finance And Audit” MMC, “Cavid-Audit" MMC, “Flex Audit” MMC, “Forum” MMAM, “Grant Thornton” MMC-nin Azərbaycan Respublikasındakı filialı, “M ənd J Konsaltinq” MMC, “Moore Stephens Azerbaijan” MMC, “Next Audit - Konsaltinq” MMC, “Premier Audit Konsaltinq” MMC, “Prime Audit And Consulting” MMC, “Samadov Hüquq və Audit” MMC “SME Audit” MMC, “T.A.T Global Audit” MMC, “UHY Audit” MMC, “VN Finans Group” MMC) rəhbərlərinə və sərbəst auditorlara (Abbasov Yaşar, Bayramov Vəli, Cəbizadə Qulu, Əliyev Yaqub, Gülməmmədov Şirxan, Hüseynov Şəmşinur, Rzayev Akif, İsmayılov Səxavət, Qarayev Vaqif, Qarayev Bəhram, Quliyev Elçin, Mikayılzadə Raqif, Nuriyev Alqış, Pənahov Novruz, Sadıqov Musa, Soltanov Qulu, Tağıyev Vasif, Vəliyev Hafiz, Yusifova Kəmalə, Yusifova Gülnarə, Zəkiyev Zəki) xəbərdarlıq elan edilsin və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, iki həftə müddətində həmin üzvlərin yüksək risk qrupuna daxil edilməsinə və onlar tərəfindən aparılmış auditlərin monitorinqlərinin 2023-2024-cü illər üzrə növbədənkənar plan-qrafikə daxil edilməsinə dair təkliflərini Palatanın rəhbərliyinə təqdim etsin.

6. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov), Şəxsi heyət üzrə menecerə (N.Abdullayeva) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu qərarın 1-ci, 2-ci və 3-cü bəndlərindən irəli gələn məsələləri həll etsinlər.

7. Bu qərarın və siyahıların mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**